**D.İ.Allahverdiyev**

**UOT:338.43; JEL:Q19.**

# Kənd təsərrüfatının dünya təcrübəsində inkişaf xüsusiyyətləri

***Xülasə***

*Məqalədə kənd təsərrüfatının dünya təcrübəsində inkişaf məqamlarına diqqət yetirilir. Eyni zamanda, Azərbaycanda kənd təsərrüfatının inkişafı xüsusiyyətlərinə baxılır və bu sahədə əldə edilən nəticələr dəyərləndirilir. Beynəlxalq təcrübədə kənd təsərrüfatı sahəsinin inkişafının tənzimlənməsi bir çox ölkələrin timsalında araşdırılır.*

***Açar sözlər**:kənd təsərrüfatı, dövlət tənzimlənməsi, qanunvericilik bazası*

## Giriş

Azərbaycanda son on ildə aparılan islahatların daha da dərinləşdirilməsi, cəmiyyətimizin daha yüksək sosial-iqtisadi inkişaf pilləsinə yüksəlməsinə şərait yaratmışdır. Həmçinin, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının stimullaşdırılmasına da xüsusi diqqət yetirilməkdədir. Belə ki, bu sahənin inkişafı, genetik ehtiyatların və bioloji müxtəlifliyin qorunması, tingçilik, toxumçuluq və damazlıq işlərinin, mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsinə diqqətin artırılması əsas götürülmüşdür. Ölkədə qəbul edilən konseptual sənədlərdə kənd təsərrüfatının müxtəlif sahələrinin intensiv inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi də önəmli hesab edilməkdədir.

## Azərbaycanda kənd təsərrüfatının inkişaf xüsusiyyətləri

Cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günə qədər insanların zəruri ərzaq tələbatları ilə təmin olunması əsas çağırışlardan biri olaraq qalır. Bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi çıxış edir. Dünya əhalisinin sayı 2050-ci ilə qədər 9,3 milyard nəfər olacağı gözlənilən ərzaq məhsullarının ümumi istehsalını təxminən 70 faiz artırmaq lazımdır. Bununla yanaşı, dünyada həyat səviyyəsinin standartlarının artırılması trendinə uyğun olaraq, ərzaq məhsullarının istehsal strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artır. Buna görə də BMT-nin 2015-ci ildə qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilə qədər davamlı inkişaf sahəsində gündəlik" sənədində aclığın aradan qaldırılması, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. Bu çağırışların fonunda dünyada kənd təsərrüfatı sahəsinin inkişafında yeni trendlər müşahidə edilir (1;2). Urbanizasiya proseslərinin qlobal miqyasda sürətlə davam etməsi və sənaye inqilabının 4-cü mərhələsinə keçidin başlanması nəticəsində aqrar sektorun rolu və strukturunda əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, torpaq və su ehtiyatlarının məhdudlaşdırılması fonunda qlobal ərzaq tədarükünün əhəmiyyətli dərəcədə artması təmin edilməlidir. Bu isə davamlı kənd təsərrüfatı istehsalına imkan verən intensiv metodlardan və yeni texnologiyalardan istifadənin genişləndirilməsini tələb edir. Buna görə də kənd təsərrüfatında müasir texnologiyaların və innovasiyaların geniş tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsi və ətraf mühitə mənfi təsirin azaldılması üçün əsas vasitə kimi çıxış edir. Bundan başqa, torpaqlardan davamlı istifadə edilməsi, kənd təsərrüfatının qlobal iqlim dəyişikliklərinə uyğunlaşdırılması, ərzaq məhsulları istehsalının həcminin artması da bu sahədə islahatların daim həyata keçirilməsini zəruri edir (1; 2;3).

Son 15 il ərzində görülmüş irimiqyaslı kompleks işlər nəticəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişafın təməlində Azərbaycan



*©D.İ.Allahverdiyev AMEA İqtisadiyyat İnstitutu, i.f.d.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Respublikasının Prezidenti İlham əliyev tərəfindən müstəqilliyimizin, təhlükəsizliyin, tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafımızın təmin edilməsi istiqamətində müəyyən edilmiş siyasi kurs dayanır. Digər sahələr kimi, aqrar sahə də dinamik inkişafı ilə bu çağırışlara cavab verərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlətimizin başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul etdiyi siyasi qərarlar ölkəmizdə qabaqcıl tənzimləmə və dəstək mexanizmlərinin geniş tətbiq edilməsi üçün real zəmin yaratmışdır. Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya, məhsuldarlığın artırılması və fermerlərin maddi rifahının yüksəldilməsi hesabına istehsal xərclərinin azaldılması təşkil edir.

Tarixən böyük əkinçilik ənənələri olan Azərbaycan beynəlxalq çağırışlara cavab verən azsaylı ölkələrdən biridir. Hələ sovet dövründə Ümummilli lider Heydər əliyevin rəhbərliyi ilə Azərbaycan geridə qalmış respublikadan dinamik inkişaf edən, böyük potensiala malik aqrar-sənaye kompleksinin formalaşdığı, resurslardan səmərəli istifadə olunduğu və intensiv inkişaf mexanizmləri geniş tətbiq edildiyi ölkəyə çevrilmişdir. Müstəqillik bərpa edildikdən sonra ümummilli liderin rəhbərliyi ilə tarixi əhəmiyyətli aqrar islahatlar uğurla həyata keçirilmiş və kənd təsərrüfatının davamlı inkişafı üçün möhkəm baza yaradılmışdır. 1990-1995-ci illərdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcminin kəskin azalması müşahidə olunduğu halda, 1995-ci ildən sonra bu sahədə davamlı artım əldə edilmişdir. Ən başlıcası isə, Ulu Öndərin siyasi iradəsi ilə həyata keçirilən aqrar islahatlar nəticəsində azad bazar münasibətlərinə və xüsusi mülkiyyətə əsaslanan yeni sistemə uğurlu keçid təmin edilmişdir. Son illər ölkəmizdə sistemli şəkildə həyata keçirilən islahatlar və yüksək dövlət dəstəyi nəticəsində kənd təsərrüfatı istehsalı göstəriciləri daim artır. Bu nəticələr yerli istehsal hesabına daxili bazarlarda təkliflərin artımına şərait yaratmaqla, özünü təminetmə səviyyəsinin artırılması, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşdırılması ilə yanaşı, qeyri-neft ixracının artırılmasına da mühüm töhfə verir. Azərbaycanda son ildə əldə edilmiş nailiyyətlər özünü aqrar sektorun inkişafı istiqamətində də göstərməkdədir. Belə ki, dövlətin kənd təsərrüfatının inkişafına qayğısı, mütərəqqi texnologiyalar və innovasiyaların tətbiqi, subsidiyaların, mineral gübrələrin güzəştli qiymətlərlə ayrılması fermerlərə yüksək məhsul yetişdirilməsinə, ixraca yönələn məhsulların həcminin artırılmasına imkan vermişdir. Bunun nəticəsi olaraq, Azərbaycanın aqrar sektorunun inkişaf templəri əhəmiyyətli dərəcədə artaraq bu dövrdə 7% təşkil etmişdir. Bu da öz növbəsində göstərir ki, ölkənin ərzaq təhlükəsizliyi ildən-ilə möhkəmlənir, vətəndaşların rifah halı yüksəlir. Yaxın xarici ölkələrdə ticarət evləri açılıb, burada milli brend olan Made in Azerbaijan-ın məhsulları satılır. Rusiya və Türkiyə kimi ənənəvi bazarlarla yanaşı, İsveç və Asiya ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi də artır. Çin Azərbaycan şərablarına maraq göstərir və nəticədə spirtli və meyvə içkilərinin tədarük həcmi iki dəfədən çox artıb, o cümlədən də Azərbaycan çayının ixracı da xeyli artmışdır. Bütün bu kimi meyillər bir daha göstərir ki, respublikanın kənd təsərrüfatı potensialıyüksəlməkdədir, əkinçilik mədəniyyəti artıb. Bu sahənin rəqəmsal iqtisadiyyata keçməsi, elektron kənd təsərrüfatı imkanlarından məharətlə istifadə edilməsi gələcəkdə kənd təsərrüfatının bütün strukturlarının dinamik inkişafını təmin edəcəkdir.

Azərbaycanda həyata keçirilən genişmiqyaslı aqrar islahatlar hesabına kənd təsərrüfatında artım templəri dayanıqlığı ilə seçilir. Keçən on beş il ərzində kənd təsərrüfatı məhsulları istehsalının real artımı bütövlükdə 166%, o cümlədən bitkiçilik sahəsində 157%, heyvandarlıq sahəsində 178% olmuşdur (9). Dünya Bankının məlumatlarına görə, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsində real artım dünya üzrə orta göstəricidən, eləcə də region ölkələrinin müvafiq göstəricisindən yüksək olmuşdur. Kənd təsərrüfatı



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahəsində dinamik inkişaf trendi cari ildə də davam etmiş, kənd təsərrüfatı məhsullarının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3%, o cümlədən bitkiçilik məhsullarının istehsalı 5,8%, heyvandarlıq məhsulları istehsalı isə 2,7 dəfə artmışdır (9). Aqrar islahatların hazırkı mərhələsi yüksək əlavə dəyər yaradan ənənəvi sahələrin inkişafı baxımından tarixi dönüş dövrü kimi də səciyyələndirilə bilər. Belə ki, görülmüş sahəvi dövlət proqramları çərçivəsində pambıqçılığın, tütünçülüyün, çəltikçiliyin, ipəkçiliyin, çayçılığın, üzümçülüyün və sitrusçülüyün inkişafı ilə bağlı tədbirlər ardıcıl və sistemli şəkildə həyata keçirilmişdir. Nəticədə kənd yerlərində yüksək əlavə dəyər və geniş məşğulluq imkanı yaradan sənaye təyinatlı və ixracyönümlü sənaye sahələrində mühüm inkişaf dinamikası əldə edilmişdir.

Pambıqçılıqda həyata keçirilən məqsədyönlü tədbirlər məhsuldarlığın yüksəldilməsini təmin edəcək və nəticə etibarilə bu sahənin ənənəvi nüfuzunun və şöhrətinin qaytarılmasına gətirib çıxaracaqdır. Kənd təsərrüfatı məhsulları üzrə emal sənayesinin gücləndirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində Ucar rayonunda pambıq, pambıq yağı və pambıq toxumunun lifsiz emalı zavodları istifadəyə verilir. Bu isə nəinki ölkədə sahənin inkişafına mühüm töhfə verəcək, həm də yerli istehsal hesabına lifsiz Pambıq Toxumuna tələbatın təmin olunmasına imkan verəcək. İntensiv təsərrüfat modelinin tətbiqinin genişləndirilməsi nəticəsində son illərdə heyvandarlıq sahəsində artım əsasən intensiv inkişaf hesabına təmin edilmişdir. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalında müqayisəli üstünlüklərin artması hesabına onların ixracında yüksək dinamika əldə edilmişdir. Son on beş ildə kənd təsərrüfatı məhsullarının ixracının həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, keçən ildə isə, tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz, xam pambıq ixracı 2,2 dəfə artmışdır (9). Ölkədə aqrar siyasətin uğurla həyata keçirilməsi nəticəsində kənd təsərrüfatlarında əlverişli bazar şəraiti formalaşmış və biznes fəaliyyəti xeyli yüksəlmişdir. Bu da muzdlu işçilərin sayının artmasına və investisiyaların həcminin artmasına təsir göstərmişdir. Yerli istehsal potensialının gücləndirilməsi və rəqabətqabiliyyətliliyin artması hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi əsaslı şəkildə artmışdır. Əgər Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35% idisə, hazırda 90%-ə yaxınlaşır. Bütün növ tərəvəz və meyvələrin özünütəminetmə səviyyəsi 100%-dən çoxdur (9).



**Beynəlxalq təcrübədə kənd təsərrüfatı sahəsinin inkişafının tənzimlənməsi**

Aqrar-sənaye kompleksinin sahələrinin dövlət tənzimlənməsi və dəstəklənməsi dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi siyasətinin prioritet istiqamətləridir. Bu siyasətin səmərəliliyi dövlətin rifahının mühüm amilidir və davamlı sosial-iqtisadi inkişafın əsasını təşkil edir. Kənd təsərrüfatı sahəsinin tənzimlənməsində xarici təcrübənin öyrənilib, məqsədli şəkildə tətbiq olunması aqrar sektorda istehsalı sahəsini sabitləşdirmək üçün zəruridir və belə yanaşma

- Müasir texnologiyaları tətbiq etməyə;
- Daxili bazarda mal istehsalçısını qorumağa;
- Kənd təsərrüfatı məhsullarının ixracını stimullaşdırmağa;
- İstehsal infrastrukturunun inkişafını təmin etməyə;
- Dünya ölkələrinin dövlət aqrar siyasətində meyillərin müqayisəli təhlilinə;
- Azərbaycanın kənd təsərrüfatına dövlət dəstəyinin beynəlxalq tələblərə və standartlara uyğunlaşdırılmasına geniş imkanlar açmış olar.

ABŞ-da kənd təsərrüfatı hələ ölkə qurulduğu andan mühüm rol oynayıb. Yeni torpağa, əsasən də Avropadan köçən miqrantlar üçün fermerlik, ilk növbədə, uğurlu inkişafın

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

zəmanəti idi. Ancaq vaxt keçdikcə bu üstünlük bir çatışmazlığa çevrildi. Fermer biznesi zaman-zaman məhsulsuzluqdan da əziyyət çəkirdi ki, bu da fermerlərin cibinə ciddi zərbə vururdu. İş yerlərinin yaranmasına kömək edən sahəni dəstəkləmək üçün öz ölçüsünə görə strateji mənfəəti şişirtmədən büdcəyə keçirmək, nəqliyyat sisteminin inkişafına təkan verməklə Amerika hökuməti müxtəlif yardım növləri tətbiq etməyə başlamışdır. Onlar əsasən fermerlərin birbaşa subsidiyalaşdırılmasından ibarət idi. Bununla belə, aqrobiznes və texnologiyaların inkişafı inhisarçılıq tendensiyası üzündən kənd təsərrüfatı sahəsi illər boyu ABŞ Konqresində daha az lobbiyə malik olmağa başlayıb. Belə ki, 1940-cı ildə ABŞ-da altı milyon hektardan çox torpaq sahəsinə malik ferma təsərrüfatı mövcud olmuşdur. 1990-cı illərin sonunda onların sayı təxminən 2,2 milyon, orta hesabla, 190 hektar idi. 2000-ci illərin birinci on illiyində bu tendensiya davam etmişdir. 2014 cü ildən başlayaraq bu sahədə adi birbaşa büdcə yardımı mexanizmi qanunvericilik səviyyəsində digər alət-risklərin sığortalanması ilə əvəz edilib (10). Bu alətin əsasında bu kimi prinsip durur: Fermerlər əkdikləri bitkilərin dəyərinin nə olacağını və gələn mövsüm hava şəraitinin nə olacağını bilmirlər. Heyvandarlıq təsərrüfatlarının sahibləri də əlverişsiz hava şəraiti və ya mal-qara xəstəliyi səbəbiylə zərər riskləri ilə əlaqədar məhsulların qiymətlərinə əmin ola bilməzlər. Əgər fermerlərə güclü quraqlıq, daşqın və bazarda gözlənilməz vəziyyət təhlükəsi yaranarsa, az xərcli qismən sığorta təmin edilir, əgər risklər azdırsa, sığorta daha yüksək ola bilər. Belə bir vasitəni tətbiq etmək üçün Amerika Konqresi üç ildən artıqdır ki, kompromislər axtarmış və sonradan 2014-cü ildə kənd təsərrüfatı haqqında qanun qəbul etmişdir. Sənəd bir neçə il ərzində bir sıra proqramların, o cümlədən ticarət, kənd təsərrüfatı tədqiqatları, Bərpa Olunan Enerji və ərzaq yardımı sahəsində proqramların işə salınması üçün 956,4 milyard dolların ayrılmasını təsdiq edib. Bununla belə, büdcənin böyük məbləğinə baxmayaraq, Konqresdə qeyd edilib ki, qanun “tarixdə kənd təsərrüfatı xərclərinin daha çox azaldılmasını nəzərdə tutur” (4). Sənəddə əsas bitkilərin qiymətləri müəyyən bir səviyyədən aşağı düşdükdə fermerlərə subsidiya şəklində ticarətə yardım üçün kredit proqramı saxlanılır. Lakin birbaşa ödənişlər sığorta ödənişləri ilə əvəz edilir. Beləliklə, ABŞ-da kənd təsərrüfatı məhsulları istehsalçılarının Dövlət Dəstəyi sahəsində əsas strateji istiqamət məhsul sığortası hesab olunur (10). Ümumilikdə, Amerikalı fermerlər iki əsas proqramdan (PLC və ARC) məhsulların satışına dəstək sxemini seçə bilərlər.



- Birinci proqram, bitkiçilik məhsullarının qiymətləri əvvəlcədən müəyyən edilmiş səviyyələrdən aşağı düşdükdə kompensasiya təmin edən kənd təsərrüfatı istehsalçılarının qiymətlərin düşməsindən sığortalanmasına əsaslanır.
- İkinci proqram kənd təsərrüfatı risklərinin sığortalanması ilə bağlıdır. O, ölkə üzrə orta göstəricidən aşağı gəlirlərin azalması halında fermerlərə ödənişləri təmin edir. Potensial ödənişlərin hesablanması üçün qeydiyyat zamanı fermerlər öz təsərrüfatlarında sahə və məhsuldarlıq haqqında məlumat verirlər (4).

Bundan əlavə, məhsul və ya gəlirlərin sığortalanması üçün daha bir neçə variant vardır. Eyni zamanda, federal hökumət 38%-dən 80%-ə qədər olan dərəcələrlə sığorta mükafatlarını subsidiyalaşdıra bilər, bu da fermerlər tərəfindən seçilmiş örtük səviyyəsindən və seçimlərindən asılı olaraq verilir. Subsidiyaların belə yüksək səviyyəsi kənd təsərrüfatı məhsullarını əlverişli qiymət satmaq üçün lazımdır. Ümumiyyətlə, qanunvericilik kənd təsərrüfatının ayrı-ayrı sahələri və istehsal istiqamətləri, məsələn, heyvandarlıq və ya pambıq becərilməsi üçün bir çox başqa variantları da nəzərdə tutur. ABŞ kimi inkişaf etmiş iqtisadiyyata malik ölkələr kənd təsərrüfatının subsidiyalaşdırılmasının yüksək səviyyədə olmasını təmin edə bilərlər.

Almaniyanın kənd təsərrüfatı sahəsi faktiki olaraq fermer təsərrüfatları tərəfindən tam şəkildə təmsil olunur. Dövlət aqrar sektoru dəstəkləyir, lakin dotasiyalı və ya birbaşa vəsait

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ayırmaqla deyil. Məsələ ondadır ki, Avropa İttifaqında bir sıra sahələrə qanunvericiliyə görə dövlət yardımı qadağan edilib. Ancaq bu prinsipial qadağada bəzi istisnalar var. Belə ki, ayrı-ayrı istehlakçılara sosial xarakterli dövlət yardımı, Almaniyanın bərpasından sonra zərər çəkmiş təsərrüfatlara humanitar yardım və qrantlar mümkündür (8). Avropa İttifaqının digər ölkələrində kənd təsərrüfatına dövlət dəstəyinin əsas vasitələrini nəzərdən keçirmək mümkündür. İspaniyada dəstək kənd təsərrüfatı risklərinin sığortalanması mexanizmi vasitəsilə həyata keçirilir. İtaliyada əsas dəstək elementi kredit ooperasiya sistemidir. Yunanıstanda vergi stimulları tətbiq edilir və bu stimullara əsasən, kənd təsərrüfatı məhskulları, ümumiyyətlə, vergidən azaddırlar. Danimarkada dövlət fermerlərə öz təsərrüfatlarını əldə edən gənc fermerlərə kreditlər və güzəştli kreditlər üçün zəmanət verir (5).

Aqrar Sənaye Kompleks müəssisələrinə dövlət dəstəyi sahəsində beynəlxalq təcrübə öz fərqliliyi ilə nəzərə çarpır. Avstraliya dünya kənd təsərrüfatı məhsullarının ixracatçıları arasında dördüncü yerdədir. Bir zamanlar ölkə Avropa ölkələri bazarında öz məhsullarına qarşı ayrı-seçkiliyə qarşı mübarizə elan edib və təbii ki, uduzmayıb. Belə ki, 1986-cı ildə yaradılmış, Avstraliyanın lider olduğu Kernel qrupu hazırda 19 kənd təsərrüfatı məhsulları istehsalçısını birləşdirir və onların payına dünya ixracının 20%-i düşür. Avstraliya hökumətinin maliyyə dəstəyi fermerlərə, bir qayda olaraq, təbii və ya texnogen amillərin vurduğu zərərin kompensasiya edilməsi üçün verilir - əsasən, bu, quraqlığın uzun dövrü ilə bağlı olur (ölkənin bütün ərazisində suvarma və quru əkinçilik birləşir). Ölkədə daşqınlar, yanğınlar və ya digər təbii fəlakətlər də baş verməkdədir (11). Bu zaman hökumət dotasiyaları yalnız o halda verilir ki, təbii fəlakətlə bağlı zərər regionda xeyli sayda təsərrüfata dözmüş olsun. Bu cür dəstək müxtəlif formalarda ola bilər: qrantlar, aşağı faiz dərəcələri üzrə qısamüddətli kreditlər və s. Dövlət kənd təsərrüfatı avadanlığının amortizasiyasının kompensasiya edilməsi üçün fermerlərə vergi güzəştləri də verir (12). Həmçinin, hökumət milli aqrar bölmənin müdafiəsi üçün xüsusi ödənişlər və idxal rüsumları sistemini tətbiq edir.



Hazırda müstəqil İsrail dövləti öz fermerlərinə çoxsəviyyəli dəstək verir. Onlara illik 10% -lə 20 ilə qədər müddətə dövlət kreditləri verilir, kvotalar müəyyən olunur və kənd təsərrüfatında istifadə olunan üçüncü içməli suyun dəyəri kompensasiya edilir. Kənd təsərrüfatı istehsalçılarına çox böyük yardım İsrail Kənd Təsərrüfatı Nazirliyinin təlimatlandırılması Xidməti tərəfindən göstərilir. Hər bir fermer və aqronom iqtisadiyyat və texnologiya mütəxəssislərindən 100 saat müxtəlif məsləhətləşmələr əldə edə bilər. Maraqlıdır ki, bütün məsləhətləşmələrin 70%-i dövlət tərəfindən ödənilir və yalnız 30%-i fermerlər üçün ödənilir (13). Dövlət İsrailin kənd təsərrüfatına yeni texnologiyalar və yeniliklər tətbiq edənlər üçün tamhüquqlu bir stimul sistemi hazırlamışdır. Belə ki, dəyəri 500 min ABŞ dolları olan müasir modernləşdirilmiş istixana tikən fermerə onun dəyərinin 30%-ni dövlət ödəyir və ya tikinti üçün kreditin üçdə biri ödənilir. Bu yanaşma da vacibdir, çünki bu, İsraildə kənd təsərrüfatının inkişafı üçün güclü bir stimuldur.

Yaponiyanın kənd təsərrüfatı idarəsi - Yaponiyanın kənd, meşə və balıq Təsərrüfatı Nazirliyinin tərkibinə daxildir və ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Kənd təsərrüfatı istehsalının dövlət dəstəyinin təhlili göstərir ki, kənd təsərrüfatı məhsullarının həcminin təxminən 80%-i hökumət proqramları və tədbirlərinin təsiri altına düşür (14). Kənd təsərrüfatı kompleksinə dövlət dəstəyinin xarici təcrübəsinin tədqiqində Kanadanın kənd təsərrüfatı məhsullarının ixracı üzrə dünyada üçüncü yeri tutan təcrübəsi böyük maraq doğurur. Son onilliklər ərzində Kanadanın ümumi ÜDM-yə kənd təsərrüfatının mütənasib töhfəsi əhəmiyyətli dərəcədə azalıb və hazırda 1,7%-ə çatıb. Bununla yanaşı, aqrar sektor hələ də iki milyondan çox kanadalının işini təmin edir və hər il 100 milyard dollardan çox gəlir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Kanada, kənd təsərrüfatı məhsullarının ixracı üzrə dünyada üçüncü yeri tutur. Son onillik ərzində Kanadanın ümumi ÜDM-ində kənd təsərrüfatının mütənasib töhfəsi əhəmiyyətli dərəcədə azalmaqla 1,7%-ə çatıb. Bununla yanaşı, aqrar sektor hələ də iki milyondan çox kanadalının işini təmin edir və hər il 100 milyard dollardan çox gəlir gətirir. ABŞ. Kanadanın kənd təsərrüfatı əhəmiyyətli dövlət dəstəyi alır (hər il 6-8 milyard ABŞ dolları arasında dəyişir. ABŞ). Bununla yanaşı, bu cür aşağı göstəricilər Kanadanın "tədarükün idarə edilməsi" adlı süd, pendir, yumurta və quş almaq üçün unikal dövlət inhisarı sistemi ilə izah olunur (15). Xüsusi olaraq yaradılmış dövlət şirkətləri bu malların bazardakı təklifini tənzimləyir, daxili istehsala nəzarət edir və idxalı yüksək rüsumlarla məhdudlaşdırırlar ki, bu da 200%-ə çata bilər. Belə bir sistem bir tərəfdən Kanadaya aqrar sektorun birbaşa subsidiyalaşdırılmasından qaçmağa, digər tərəfdən isə istehlakçılara zərər vurur. Çünki dövlət tənzimlənməsinə görə Kanadada son məhsulun qiyməti digər ölkələrə nisbətən 30%-dən 300%-ə qədər yüksəkdir. Beləliklə, yüksək qiymətlərlə öz cibindən olan alıcılar milli istehsalçı tərəfindən dəstəklənir. Kanadanın digər aqro-ərzaq bazarının (taxıl, donuz əti, dana əti və s.) satışları, ümumiyyətlə, bazar şəraitində baş verir, baxmayaraq ki, fermerlər üçün "Farm Credit Canada" xüsusi kredit müəssisəsi yaradılıb. Bundan başqa, ölkədə kənd təsərrüfatı məhsulları istehsalçıları üçün ona yaxın əyalət və federal proqram fəaliyyət göstərir ki, onların da arasında 400 min ABŞ dollarına qədər qısamüddətli kreditlər vardır. Aqrar-sənaye kompleksinə dövlət dəstəyi çərçivəsində Kanadada əsas diqqət ETTKİ-nin maliyyələşdirilməsinə verilir, buna görə də hər il dövlət kənd təsərrüfatının inkişafı sahəsində müxtəlif elmi tədqiqatlara və tədqiqatlara yüz milyonlarla ABŞ dolları sərmayə qoyur. Bundan əlavə, yeni federal büdcə 2016-2021il ərzində 500 milyon dollar sərmayə qoymağı vəd edir. Kənd təsərrüfatına dövlət dəstəyi siyasətinin həyata keçirilməsi zamanı əksər ölkələr bu kimi imkanlara nail olurlar:



- ⇨ Dövlətin və cəmiyyətin keyfiyyətli ərzaq və ərzaq məhsulları ilə təminatı;
- ⇨ Kənd təsərrüfatı və emal sahələrində sabit vəziyyət;
- ⇨ Artıq istehsalın məhdudlaşdırılması;
- ⇨ Daxili bazarın müdafiəsi;
- ⇨ Kənd təsərrüfatı müəssisələrinin rəqabətqabiliyyətliliyinin təminatı.

Dünya ölkələrində dövlət dəstəyi kənd təsərrüfatı sahələrinin daxili iqtisadiyyat və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət daşıması, eləcə də kənd yerlərində əhalini saxlamaq üçün baş verir. Dünya ölkələrinin kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyinin tərkibində üç əsas istiqamət nəzərə çarpır:

- ✓ İstehsalçılara subsidiyalar;
- ✓ Ümumi xidmətlərin büdcə maliyyələşdirilməsi;
- ✓ İstehlakçılara transfertlər.

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, iqtisadiyyatın aqrar sektorunun dövlət tənzimlənməsinin yalnız yüksək səmərəli mexanizmləri aqrar-sənaye kompleksinin yüksək effektivliyini və rəqabət qabiliyyətini təmin edə bilər.

**Nəticə**

Aparılan təhlil göstər ki, nəzərdən keçirilən ölkələrdə aqrar siyasətin həyata keçirilməsi mexanizminin məzmunca fərqli olsa da, lakin, ümumilikdə kənd təsərrüfatının inkişafı baxımından dəyərli hesab oluna bilər. Xüsusilə də Azərbaycannın kənd təsərrüfatına dövlət dəstəyininin bu baxımdan təkmilləşdirilməsi də əhəmiyyət kəsb edər. Ölkədə aqrar-ərzaq kompleksinin struktur baxımdan yenidənqurulması idxal əvəzlənməsinə kömək edə bilər.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.
2.“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. Bakı, 2016.
3.“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” Bakı, 2016..
4.Газизов Р. М. Зарубежный опыт развития сельских территорий. Молодой ученый. № 2. 2014.
5.Гатаулина Е.А., Шкуренко А.В. Синхронизация аграрных политик в ЕАЭС с учетом опыта ЕС. Экономика сельскохозяйственных и перерабатывающих предприятий. № 10. 2015.
6.Шутьков А.А., Шутьков С.А. Формирование интеграционных процессов перерабатывающих и сельскохозяйственных предприятий: проблемы импортозамещения // Вестник национального института бизнеса. № 24. 2016.
7.Agriculture and Agri-Food Canada. http://www.agr.gc.ca/eng/home/?id=1395690825741.
8.Synthesis of ex ante evaluations of rural development programmes 2014-2020. Final Report. European Union, 2015. 232 p
9.https://www.stat.gov.az
10. https://geographyofrussia.com/ssha-selskoe-xozyajstvo
11. https://ru.wikipedia.org/wiki/Сельское_хозяйство_Австралии
12. https://ru.qwe.wiki/wiki/Agriculture_in_Australia
13. https://ru.wikipedia.org/wiki/Сельское_хозяйство_Израиля
14. https://www.economy-web.org/?p=372
15. https://obrazovaka.ru/geografiya/selskoe-hozyaystvo-kanady.htm



***Д.И.Аллахвердиев***

***Особенности развития сельского хозяйства в мировой практике***

***Резюме***

*В статье основное внимание уделяется моментам развития сельского хозяйства в мировой практике. В то же время в Азербайджане рассматриваются особенности развития сельского хозяйства, оцениваются результаты, достигнутые в этой сфере. В международной практике регулирование развития сельскохозяйственной отрасли рассматривается на примере многих стран.*

***Ключевые слова***: *сельское хозяйство, государственное регулирование, законодательная база*

***D.İ.Allaxverdiyev***

***Features of development in the world practice of Agriculture***

***Summary***

*The article focuses on the development of Agriculture in world practice. At the same time, the peculiarities of agricultural development in Azerbaijan are considered and the results achieved in this area are evaluated. In international practice, the regulation of the development of the agricultural sector is studied by the example of many countries.*

***Keywords:*** *agriculture, state regulation, legislative base*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:09.03.2020.***
***Çapa qəbul olunub:13.03.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*